# PEDAQOGİKA

**UOT 37.02; 371**

## TƏLƏBƏ MÜSTƏQİL FƏALİYYƏTİNİN NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ

**R.M.MAHMUDOVA**
***Bakı Dövlət Universiteti***
***Sosial-sciences&dsu/az***

*Məqalədə tələbə müstəqil işinin mahiyyəti təhlil edilir, müstəqil işin müvəffəqiyyətlə yerinə yetirilməsində müstəqillik vacib prinsip kimi əsaslandırılır, «təlim prosesi», «tələbə müstəqil işi», «tələbə müstəqil fəaliyyəti» anlayışlarının məzmunu müəyyənləşdirilir, tələbə müstəqil işinin qiymətləndirilmə mexanizmi açıqlanır, koqnitiv və kreativ proseslərə əsaslanaraq müstəqil fəaliyyət bacarıqları müəyyən edilir.*

**Acar sözlər:** təlim prosesi, tələbə müstəqil işi, tələbə müstəqil fəaliyyəti, müstəqil fəaliyyətin qiymətləndirilməsi, müstəqil fəaliyyət bacarıqları, taksonomiya

Son illərdə ölkəmizdə həyata keçirilən təhsil islahatı nəticə etibarilə tələbə müstəqil fəaliyyətini təhsilin ağırlıq mərkəzlərindən birinə çevirdi. 70-80-ci illərdə əsasən hafizə ölçülərinə əsaslanan təhsil, müasir dövrdə həm də koqnitiv və kreativ ölçülərlə mənalandırılmağa başlandı. Başqa sözlə desək, müasir dövrdə hər hansı bir biliyi yaxşı bilmək əsas şərt deyil, həmin biliyə əsaslanaraq, hadisəni təhlil etmək, ümumiləşdirmək, tətbiq etmək, fərziyyə irəli sürmək, analiz və sintez etmək, yeni ideya irəli sürmək tələb olunur. Ölkəmizdə interaktiv təlim metodlarının geniş miqyasda tətbiqi də elə bu məsələ ilə bilavasitə bağlı olub, tələbənin müstəqil fəaliyyətini fəallaşdırmağa hesablanıb.

Göründüyü kimi, tələbə müstəqil fəaliyyəti günün prioriteti problemlərindən biridir. Onun həyata keçirilməsi, ilk növbədə, müstəqil fəaliyyət üçün zəruri olan bacarıqların aşılanması ilə bilavasitə bağlıdır. Lakin nə qədər qəribə olsa da, bu bacarıqların müəyyənləşdirilməsi və formalaşması problemi pedaqoji tədqiqatlarda diqqətdən kənar qalmışdır. Bunun əsas səbəblərindən biri tələbə müstəqil fəaliyyəti probleminin uzun illər pedaqoji tədqiqatlarda tələbə müstəqil işi kimi tədqiq edilməsidir. Nəticədə tədqiqatçılar arasında tələbə müstəqil işi probleminə vahid yanaşma əldə edilməmişdir, onun

mahiyyəti müxtəlif istiqamətlərdən təhlil edilir, bir-birinə zidd nəticələr əldə olunur. Bu məsələyə diqqət yetirək.

## Müstəqil işin mahiyyəti haqqında

Müstəqil iş problemi ilə bağlı çoxlu sayda tədqiqatlar aparılsa da, tədqiqatçılar arasında müstəqil işin mahiyyətinin izahında fikir eyniliyi yoxdur. Məsələn, T.A.İlyina müstəqil işi – «həm dərsdə, həm də dərsdənkənar vaxtlarda, müəllimin öz rəhbərliyi ilə həyata keçirdiyi fərdi, qrup və frontal növü» kimi (1, 296) qiymətləndirir. Maraqlıdır, dərsdənkənar vaxtlarda müəllimin rəhbərliyi ilə müstəqil işin növləri necə təşkil olunur?

L.V.Jarova müstəqil işi təlimin metodu kimi qiymətləndirir. Onun fikrincə, öyrənən «müəllimin rəhbərliyi altında həmin an üçün xüsusi olaraq təqdim edilən tapşırığı müstəqil həll edir, bu zaman müstəqil fəaliyyət göstərərək müəyyən nəticə əldə edir (2, 67). Müstəqil işi metod kimi qiymələndirmək bəlkə də mümkündür, lakin burada məqsəd müstəqil fəaliyyəti təşkil etməkdirsə, pedaqogikada müstəqil fəaliyyəti təşkil edən çoxlu metodlar vardır, onlardan istifadə etmək daha məqsədəuyğun olardı.

R.M.Mikelson müstəqil işi kömək olmadan, lakin müəllimin nəzarəti atında tapşırıqların yerinə yetirilməsi (3,11), N.Y.Leykina müstəqil fəaliyyətin forması (4,73), L.V.Qriqorenko «təlim və təlimdənkənar vaxtlarda tələbələr tərəfindən yerinə yetirilən müxtəlif tapşırıqlar sistemi» (5,27) kimi qiymətləndirir. Göründüyü kimi, müstəqil işlə bağlı alimlərin fikirləri müxtəlifdir. Bu məqama diqqət yetirən O.S.Zaytsev qeyd edir ki, müstəqil işə bəzən auditoriyadan kənar iş kimi baxırlar, bəzən isə bu anlayışı mühazirələrdə, seminarlarda, praktikumlarda müstəqil işə qədər genişləndirirlər. Bəzi müəlliflər belə hesab edirlər ki, müstəqil iş müəllimin iştirakı olmadan həyata keçirilməlidir; bəziləri isə əksinə, müəllimin iştirakını mütləq hesab edirlər; müstəqil işin ciddi fərdiləşməsindən və onun keçirilməsinin kollektiv formalarından danışırlar. Sonda isə o, fikrini ümumiləşdirərək qeyd edir ki, müstəqil iş gələcək özünütəhsilə tələbatın inkişafının ən səmərəli vasitələrindən biridir (6, 285). Göründüyü kimi, müstəqil işin mahiyyətinin açıqlanması istiqamətində O.S.Zaytsev də uğurlu bir fikir söyləyə bilməmiş, onu özünütəhsilin vasitəsi kimi mənalandırmışdır. Ümumiyyətlə, digər tədqiqatlarda da müstəqil işi özünütəhsil fəaliyyəti ilə eyniləşdirmək cəhdlərinə rast gəlinir ki, bu da müstəqil işin spesifik xüsusiyyətlərini itirməsi ilə nəticələnir. Məsələn, S.İ.Zinonyev qeyd edir ki, biliyin fərdi axtarışı – ali məktəb tələbəsinin ən xarakterik cizgisidir. Özünütəhsildə burada öz iradəsini tapır, tələbənin müstəqil hazırlığı, tədris prosesi ilə paralel gedərək, onunla üzvi surətdə əlaqəlidir» (7,92). Göründüyü kimi, burada «müstəqil iş» anlayışı ilə «özünütəhsil» anlayışı arasındakı məna fərqlərinə diqqət yetirilmir.

Özünütəhsil məsələsinə tez-tez diqqət yetirilməsi tamamilə qanunauyğundur. Elmin intensiv inkişafı, biliyin tez «köhnəlməsi», sürətli sosial-iqtisadi inkişaf gələcək mütəxəssisdən ali məktəbdə aldığı bilikləri daim təkmil-

ləşdirməyi və yeni bilik əldə etməyi tələb edir ki, bu da özünütəhsil prosesində baş verir. Bu, təhsilin daha çevik və universal forması kimi qiymətləndirilir. Lakin onun vəzifələri müstəqil işin vəzifələrindən daha geniş olub, ali məktəb çərçivəsindən kənara çıxır, gənc mütəxəssisin ali məktəbi bitirdikdən sonra təhsilini davam etdirməsi prosesi kimi qiymətləndirilir (8; 9 və s.). Bundan əlavə, «müstəqil iş» anlayışı ilə «özünütəhsil» anlayışı arasında məna fərqləri də vardır. Fikrimizcə, müstəqil işi «özünütəhsilin» tərkib hissəsi kimi qiymətləndirmək, ona özünütəhsilin zəruri şərti kimi baxmaq daha düzgün olardı. Belə ki, müstəqil iş həmişə müstəqil idraki fəaliyyətdə öz təsdiqini tapır.

Azərbaycanda da tələbə müstəqil işi problemi ilə əlaqədar müəyyən tədqiqatlar aparılmışdır. Məsələn, S.Şəfiyev tələbələrin müstəqil işlərini auditoriyada və auditoriyadankənar fəaliyyətlə bağlayaraq, qeyd edir ki, bu problem kompleks şəkildə həyata keçirildikdə həll edilə bilər. O, tələbələrin müstəqil işlərinin tam sistemində iki istiqaməti qeyd edir: 1. tərbiyəvi təsir istiqaməti; 2. biliklərə yiyələndirmə istiqaməti. Müəllif bildirir ki, tərbiyəvi təsir istiqamətində aparılan işin məqsədi tələbələrdə geniş dünyagörüşü formalaşdırmaqdan, mədəni vərdişlər yaratmaqla bağlı tədbirlər səviyyəsini gücləndirməkdən ibarətdir. Biliklərə yiyələndirmə istiqamətində aparılan işlərin məqsədi isə tələbələrdə biliklərə yiyələnmə bacarıq və vərdişləri yaratmaq, müstəqil işlərin texnikasını öyrənmək və həmin biliyi konkret şəkildə həyata keçirməyə sövq etməkdir (10,4). Fikrimizcə, müəllif tələbənin müstəqil işinin şəxsi yaradıcılıq, təşəbbüskarlıq, axtarıcı fəallıq aspektlərinə də diqqət yetirsəydi, daha yaxşı olardı.

Dərslik və dərs vəsaitlərində müstəqil işdən bəhs edərkən müəlliflər müstəqil işi mənimsəmənin dərin olması, öyrənənlərdə müstəqil iş vərdişlərinin artırılması, müstəqil işin təlim fəaliyyətinin növü və prinsipi hesab edilməsi, əldə edilən biliklərin dərinləşdirilməsi və yeni informasiya almaq istiqamətində fəaliyyət prosesinin axtarıcılığa yönəldilməsi, görüləcək işlərin optimal pedaqoji sisteminin yaradılması və s. kimi dəyərləndirmişlər. Ümumiyyətlə, belə deyə bilərik ki, müəlliflər bir sıra hallarda az qala öyrənənin bütün fəaliyyətini müstəqil iş kimi mənalandırırlar. Bu zaman müəlliflər təlim məqsədlərinin həyata keçirilməsi meyarını ön plana çəkirlər. Müstəqil işi bu və ya digər rakursdan qiymətləndirməyə cəhd edən müəlliflərin əsas məqsədi öyrənənlərin müstəqil fəaliyyətini daha səmərəli təşkil etməkdən ibarətdir.

Elmin inkişafı, informasiyanın bolluğu, tədris vaxtının bütün bunları əhatə edə bilməməsi müstəqil işdən istifadəni təlim fəaliyyətinin tərkib hissəsinə çevirmişdir. Öyrənmə, informasiya alma imkanlarının artdığı indiki şəraitdə öyrənənin müstəqil iş fəaliyyəti daha da genişlənmiş, öyrədənin rəhbərlik funksiyası yalnız istiqamətverici məzmun almışdır.

Burada bir məqama diqqət yetirmək lazımdır. Təlim prosesi iki tərəfli proses olub, müəllimlə tələbənin qarşılıqlı fəaliyyətini özündə birləşdirir. Müəllim və tələbə münasibətləri uzun illər ərzində «subyekt-obyekt» müstəvisində inkişaf etmiş, yəni müəllim öyrədən, tələbə öyrənən funksiyasının daşı-

yıcısı olub. Bu münasibətlər müasir dövrdə «subyekt-obyekt» müstəvisində inkişaf edir, yəni müəllim tələbə ilə əməkdaşlıq edərək, elə şərait yaradır ki, tələbə müstəqil olaraq yeni biliyi kəşf etsin. Hər iki müstəvidə yeni biliyi tələbə müstəqil fəaliyyət göstərərək mənimsəyirdi, lakin müasir dövrdə tələbənin müstəqilliyi daha da artmış, yeni məzmun kəsb etmişdir.

Müəllim təlim prosesinin təşkilatçısıdır. O dərsin (mühazirə, seminar, laborator və b. məşğələ) məzmununu (öyrəniləcək materialı), metodlarını (necə, hansı yollarla öyrədəcəyini, necə diaqnostika və korreksiya edəcəyini, qiymətləndirəcəyini) və təşkilat formalarını (mühazirə, seminar, laborator məşğələ və s.) müəyyənləşdirir. Yuxarıda qeyd edildiyi kimi, müəllim dərsdə – mühazirə, seminar, laborator məşğələdə müstəqil işdən istifadə edir. Ortaya nəzəri və praktik əhəmiyyət kəsb edən sual çıxır. Görəsən təlim prosesində müstəqil iş hansı məzmunda iştirak edir? Axı dərsin məzmunu, forması və metodları var. Bu məsələni izah edək:

Son illərdə pedaqoji ədəbiyyatda (11; 12; 13; 14) müstəqil işin mahiyyəti yeni məzmunda mənalandırmağa başlanmışdır. Məsələn, müəlliflərin bir qismi, müstəqil işi tələbələrin yerinə yetirdikləri tapşırığın xarakteri ilə, bu tapşırıqların şəxsiyyətin inkişafı üçün onların həlli nəticəsində əldə edilən müstəqillik keyfiyyəti kimi də qiymətləndirirlər. Bu tədqiqatlarda qeyd edilir ki, müstəqil iş yeni biliyin dərindən mənimsənilməsi və müstəqillik əldə edilməsi, tələbələrin özləri tərəfindən işin ritminin və qarşıya qoyulmuş məsələnin öyrənilmə vaxtının müəyyən edilməsi kimi əlamətlərə malikdir. Başqa sözlə desək, müstəqil işin təşkilində öyrənənin şəxsiyyətinin müstəqilliyi son dövrlərdə, daha önəmli prinsip kimi qiymətləndirilməyə başlamışdır.

### Şəxsiyyətin müstəqilliyi müstəqil işin ilkin pilləsi kimi

Son illərdə, xüsusən ali məktəb istiqamətində problemlə bağlı çoxlu tədqiqatlar aparılır. Bu tədqiqatların böyük əksəriyyətində (N.Q.Dayri, B.P.Esipov, Q.E.Kovalyov, L.M.Milenova, Y.A.Ponomaryev və b.) ilkin prinsip kimi şəxsiyyətin «müstəqillik» keyfiyyəti əsas kimi götürülür.

Müstəqillik qarşıya müəyyən məqsəd qoymaq bacarığı, səylə ona nail olmağa, öz qüvvəsi ilə, öz fəaliyyətinə məsuliyyətli yanaşma, bu zaman təkcə tanış olan situasiyada deyil, həm də qeyri-standart situasiyalarda qərarlar qəbul edən, yeni şəraitdə təşəbbüskarlıqla və şüurla hərəkət etmək (15,689) kimi ifadə edilir. Müstəqillik anadangəlmə keyfiyyət deyil. İnsan yaşadıqca formalaşma prosesini keçirir.

Müstəqillik pedaqoji ədəbiyyatda təfəkkürün müstəqilliyi (16,3) kimi qiymətləndirilir. Materialın mənimsənilməsinin əsas şərti informasiyanın müstəqil təhlilindən – əsas anlayışların ayırd edilməsi, səbəb-nəticə əlaqələrinin və onlar arasında münasibətlərin müəyyən edilməsi və beləliklə, təlim materialını analiz və sintez etməkdən ibarətdir.

Rus dilində nəşr olunan pedaqoji lüğətdə (15, 689) təfəkkürün müstəqilliyi belə ifadə edilir: «həqiqətin dərk edilməsinə yaradıcı yanaşır, yeni fakt və

qanunauyğunluqları, yeni fərziyyə və nəzəriyyənin öyrənilməsi üçün yeni yollar axtarır və tapır. Təfəkkürün müstəqilliyi onun tənqidiliyi ilə sıx bağlıdır və özündə yaradıcı şəxsiyyətin zəruri cizgilərini cəmləşdirir».

Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, müstəqillik müstəqil idraki fəaliyyət üzərində qurulur.

Müasir dövrdə dünyanın bütün ali məktəblərində ali təhsilin dəyərliliyi öz tələbələrinə iş bacarıqları, müstəqil işləmə keyfiyyətləri aşılanmasında təzahür edir. Deməli, müəllim hər bir tələbənin idrak fəaliyyətini aktivləşdirməli, onda müstəqil fəaliyyət keyfiyyətləri aşılamalıdır. Bu zaman müəllim hər bir tələbənin fərdi-psixoloji inkişafına təsir göstərərək, onun qabiliyyətlərini inkişaf etdirməlidir. Deməli, tələbənin müstəqil fəaliyyətinin əsas məqsədi sırasında tələbənin daxili imkanlarının, fərdi qabiliyyətlərinin inkişaf etdirilməsi birinci yerdə dayanır.

Müstəqil fəaliyyət tələbəni yaradıcı fəaliyyətə hazırlasa da, onun əsas vəzifəsi bilik və bacarıqların, tədqiqatçılıq qabiliyyətinin təkmilləşməsini, öyrənilmiş materialların təkrarını və ümumiləşdirilməsini, alınmış biliklərin tətbiqini, analiz və sintezini həyata keçirməsini, fikrini yazılı və şifahi sərbəst şərh edə bilmək qabiliyyətini və s. inkişaf etdirməkdir.

Müstəqillik məhz fəaliyyətdə müstəqil düşüncə və axtarışla, işə şəxsi töhfəsini verərək onu hazırlamaqla əmək sərf edilməsini normallaşdırır. Nəticədə tələbələrin təlim məqsədlərinə xidmət edən və eləcə də şəxsi maraq və meyllərindən irəli gələn müstəqil düşüncə tərzinə yiyələnmə imkanlarını artırır. Ə.S.Bayramovun qeyd etdiyi kimi, «… o nəinki özü sual, problem qoya bilir, həm də qarşıya qoyulmuş vəzifəni həll etmək üçün özünəməxsus xüsusi, çox zaman orijinal yol tapmağı bacarır, varlığı öyrənmək üçün yeni yol və priyomlar tapır» (bax: 17). Bütün yaş dövrlərində aktual olan bu mövqe gənclik illərində yaradıcı axtarışlar səviyyəsinə yüksəlir.

Ə.Əlizadə qeyd edir ki, fərdi-müstəqil iş görmə meyli olan tələbələrdə şəxsiyyətin mühüm xassəsi olan müstəqillik özünü daha bariz şəkildə göstərir. Bu halda Jan Piaje təliminə əsaslanaraq, düşüncə, icraçılıq fəallığı ilə təfəkkürün məntiqiliyini əlaqələndirmə mühüm əhəmiyyət kəsb edir. Tələbələrə müstəqil işlər verilərkən və ya onlar bu prosesə cəlb olunarkən onların fərdi-təbii imkan və qabiliyyətləri nəzərə alınır, müxtəlif yanaşma və metodlardan istifadə edilərək inkişafa yönəliş və məqsədə çatma təmin olunur (bax:18).

Müstəqil iş problemi ilə bağlı aparılan tədqiqatlarda bir çox tədqiqatçılar problemin bu tərəfinə diqqət yetirmişlər. Məsələn, E.Y.Qolant müstəqil işin daxili tərəfindən xüsusi diqqət yetirərək, bildirir ki, o, müstəqil fikir, müstəqil düşüncə və nəticələrdə ifadə olunur (19,36). E.Y.Qolant problemə daha dərindən yanaşmış, öyrənənin fəaliyyətinin strukturuna nüfuz etmişdir, amma onu müstəqil iş kimi səciyyələndirmişdir. Halbuki, müstəqil fikir, müstəqil düşüncə və nəticə müstəqil fəaliyyətin tərkib hissələri kimi qiymətləndirilsəydi, daha düzgün olardı.

P.İ.Pidkasistinin təyinatında müstəqil iş daha çox idraki fəallığın vasitəsi

kimi qiymətləndirilir. «Müstəqil iş – tədris məşğələsinin təşkili forması və təlimin metodu deyil. Onu şagirdləri müstəqil idraki fəallığa cəlb etmənin vasitəsi kimi başa düşmək daha düzgün olardı» (20, 42). Pidkasisti öz tədqiqatlarında müstəqil fəaliyyətlə müstəqil iş arasındakı dialektik əlaqəni axtarır. Onun qənaətləri bizim tədqiqatımızda əldə etdiyimiz nəticələrə çox yaxındır.

Maraqlıdır ki, P.İ.Pidkasisti öz tədqiqatlarında müstəqil işin didaktik məqsədinə də diqqət yetirir. Onun fikrincə, müstəqil iş bir tərəfdən təlim tapşırığı kimi özünü göstərir, yəni öyrənən nəyi yerinə yetirməlidir, onun fəaliyyətinin obyekti, digər tərəfdən, müəyyən fəaliyyətin inikası forması kimi öyrənən tərəfindən təlim tapşırığını yerinə yetirərkən yaddaş, təfəkkür, yaradıcı təxəyyül, hansı ki, son nəticədə tamamilə yeni bilik əldə edilməsi, əvvəllər onun üçün naməlum olan və ya əldə etdiyi biliyin daha da dərinləşməsi və genişlənməsi ilə nəticələnir. Göründüyü kimi, o problemə metodiki baxımdan tamamilə düzgün yanaşmışdır. Lakin təlim prosesi, müstəqil iş prosesi və müstəqil fəaliyyət anlayışlarının sərhədlərinin müəyyənləşməsində müəyyən anlaşılmazlığa yol vermişdir.

R.B.Sroda (21; 7) o fəaliyyət müstəqil adlandırır ki, öyrənən yerinə yetirərkən maksimum aktivlik, yaradıcılıq, müstəqil düşüncə və təşəbbüskarlıq göstərir. Bu, öyrənilən material üzərində diqqətin cəmlənməsi, müəllimin izahının və ya sinif yoldaşının cavabının, fəal və şüurlu davranılması, konkret faktiki biliyi tədricən öz yaddaşına toplamaq və yadda saxlamaq, ayrı-ayrı faktları bir-biri ilə müqayisə etmək, öyrəniləni əvvəl keçirilmiş materiallarla əlaqələndirmək, nəticə çıxarmaq və ümumiləşdirmək, öz biliyinin düzgünlük və möhkəmliyini müstəqil yoxlamaq, alınmış nəticələri təcrübi nöqteyi-nəzərdən qiymətləndirmək və s. özündə cəmləşdirir. Aydındır ki, bütün bu işlər müəllimin bilavasitə rəhbərliyi altında həyata keçirilir, stimullaşdırılır və istiqamətləndirilir. R.B.Srodanın fikirləri ilə tam razılaşmaq olar. O, müstəqil işi öyrənənin müstəqil fəaliyyəti səviyyəsində qiymətləndirir, sadəcə olaraq onu müstəqil iş kimi adlandırır. Əslində isə, dərsdən sonra həyata keçirilən müstəqil iş prosesi R.B.Srodanın bu təyinatında unudulmuşdur.

Müstəqil iş problemi istiqamətində B.P.Yesipovun tədqiqatları da maraq doğurur. Onun fikrincə (22; 34) «müstəqil iş, təlim prosesinə daxil edilir, - bu elə bir işdir ki, müəllimin bilavasitə iştirakı olmadan, lakin müəyyən bir vaxt ərzində xüsusi olaraq verilmiş tapşırıqdır, bu zaman öyrənənlər şüurlu olaraq qarşıya qoyulmuş məqsədə nail olmağa çalışır, öz səylərini əqli və ya fiziki fəaliyyət istiqamətinə yönəldirlər». Müəllif həmçinin qeyd edir ki, təlim prosesinin düzgün təşkili onun hər bir tərkib hissəsində öyrənənin aktivliyini tələb edir. Göründüyü kimi, B.P.Yesipov müstəqil işi təlim prosesinin tərkib hissəsi kimi qiymətləndirir və bu prosesdə öyrənənin fəallığını, başqa sözlə desək, müstəqil fəaliyyətini ön plana çəkir. Öz tədqiqatlarında daha da dərinə gedən B.P.Yesipovun izahında yaradıcılıq kimi əlamət diqqətdən kənar qalmışdır.

N.D.Levitov, İ.Y.Lerner və L.M.Pimenovanın tədqiqatlarının nəticəsi də bizim üçün maraq kəsb edir. Belə ki, onlar öyrənənin fəallıq və müstəqilliyinə

dinamikada – təqlidi fəaliyyətdən, yaradıcı fəaliyyətə doğru istiqamətdə götürür, bu zaman müstəqil işin daxili (prosessual) tərəfinə əsaslanırlar.

Aparılan tədqiqatların, elmi və metodiki ədəbiyyatın təhlili belə deməyə əsas verir ki, müstəqil işin xarakteri ilə şagirdlərin idraki fəallığının səviyyəsi arasında olan asılılıq hələ həll edilmə mərhələsindədir. Bu problem istiqamətində artıq xeyli tədqiqat aparılmışdır. Məsələn, L.V.Jarova «Müstəqilliyi öyrətmək» kitabında şagirdin müstəqillik səviyyəsi ilə, onun təlim fəaliyyətindəki müstəqilliyinin xarakterinin qarşılıqlı əlaqəsinə diqqət yetirir. Müəllif belə qənaətə gəlir ki, müstəqilliyin səviyyəsi nə qədər yüksək olursa, təlim fəaliyyətinin xarakteri bir o qədər yüksək olur (2). Müəllifin qənaəti ilə tam razıyıq. Amma onu belə ifadə etməyi məqsədəuyğun hesab edirik: Təlim prosesində öyrənənin müstəqil fəaliyyətinin səviyyəsi nə qədər yüksək olarsa, əldə olunan təlim nəticələri də bir o qədər yüksək olar.

**Təlim prosesi, müstəqil iş prosesi və tələbə müstəqil fəaliyyəti**

Göründüyü kimi, tələbə müstəqil işi istiqamətində çoxlu sayda tədqiqatlar aparılmışdır. Lakin buna baxmayaraq, problemlə bağlı fikir vahidliyi yoxdur. Bunun səbəbi, fikrimizcə, problemin çoxtərəfli olması və tədqiqatçıların müstəqil iş anlayışı ilə, müstəqil fəaliyyət anlayışlarının sərhədlərinə diqqət yetirməmələridir. Fikir verək, pedaqoji ədəbiyyatda tələbələrin müstəqil işi öyrədənlər tərəfindən təşkil edilərək tələbələri müstəqil öyrənməyə, işləməyə, fəaliyyət göstərməyə, müstəqil fikir və mülahizələr söyləməyə, yaradıcı işgüzarlığa və s. təhrik edən pedaqoji proses kimi qiymətləndirilir. Məgər müstəqil öyrənmək, işləmək, fəaliyyət göstərmək, müstəqil fikir və mülahizələr söyləmək, yaradıcılıq nümayiş etdirmək tələbənin müstəqil fəaliyyəti deyilmi? Onu tələbənin müstəqil fəaliyyəti kimi qiymətləndirmək daha məqsədəuyğun olmazdımı? Yuxarıda qeyd etdiyimiz kimi, müəlliflərin bir qismi müstəqil işi təlim prosesinin tərkib hissəsi kimi qiymətləndirirlər. Onda ortaya belə bir sual çıxır: Mühazirə zamanı müəllim nəyisə izah edərkən, tələbənin onun dediklərini mənimsəməsi, anlaması, təhlil, analiz və sintez etməsi, ümumiləşdirilməsi tələbənin müstəqil işi adlanır? Yaxud seminar məşğələsi zamanı tələbə müstəqil olaraq hansısa tapşırığı icra edərkən, müəllimlə dialoqa girərkən və ya nəyisə dəqiqləşdirmək üçün soruşmağa, məsləhət almağa ehtiyac yaranarsa, bunları da tələbənin müstəqil işinə ayırd edirik? Axı müəlliflərin böyük əksəriyyəti tələbə müstəqil işini müəllimin rəhbərliyindən kənar qiymətləndirir. Göründüyü kimi, təlim prosesində müstəqil işin yeri məhduddur və gəldiyimiz qənaət belədir ki, müstəqil iş auditoriyadan kənar mövcuddur. Tələbənin auditoriyadakı fəaliyyəti isə yalnız tələbənin müstəqil fəaliyyəti kimi qiymətləndirilməlidir. Auditoriyada istər mühazirə, istər seminar, istərsə də laborator və digər məşğələlər müəllimin bu və ya digər formada nəzarəti və tapşırığı nəticəsində tələbə müstəqil fəaliyyət (idraki, praktik, yaradıcı və s.) göstərərək, onu icra edir və icra etdiyi işin keyfiyyətinə görə qiymətləndirilir. Bəzi müəlliflər verilən tapşırıqların icrasını müstəqil iş adlandırır. Fikrimizcə,

bu da o qədər uğurlu yanaşma deyil. Təlim prosesi müəllim-tələbə münasibətləri üzərində qurulmuşdur. Müəllim mühazirə deyir, tələbəyə tapşırıq verir, tələbə isə dialoqa girir, mübahisə edir və s. bütün bunlar təlim prosesinin mərhələləridir və təlim prosesinin qanunauyğunluqları ilə tənzimlənir.

Alimlərin əksəriyyəti auditoriyada tələbənin müstəqil, fəal, axtarıcı, yaradıcı fəaliyyətindən bəhs edirlər, lakin nə qədər qəribə olsa da, bütün bu fəaliyyəti müstəqil iş kimi səciyyələndirirlər. Məhz bu məqamda alimlər yanlışlığa yol verir. Təlim prosesində həm müəllim, həm də tələbə fəaliyyət göstərir. Bu fəaliyyətə onların qarşılıqlı əməkdaşlığı nəticəsində, təlim prosesinin qanunauyğunluqları çərçivəsində həyata keçirilir.

Müstəqil iş isə təlim prosesindən sonra həyata keçirilən bir prosesdir. O dərsdən sonra – evdə, kitabxanada və başqa yerdə həyata keçirilən fəaliyyətdir. Təbii ki, tələbə dərsdən sonra fəaliyyətin müxtəlif növləri ilə məşğul olur. Məsələn, idmanla məşğul olur, qohumları, dostları ilə birlikdə olur, kinoya, teatra gedir və s. Aydın məsələdir ki, bütün bunların hamısı müstəqil iş prosesinə daxil deyil. Müstəqil iş yalnız təlim tapşırıqlarının həyata keçirilməsi istiqamətində həyata keçirilən prosesdir. Yəni tələbə müstəqil iş prosesində təlim prosesində ona verilən tapşırıqları və ya bilavasitə əlaqəsi olan işləri müstəqil fəaliyyət göstərərək, həyata keçirir.

Belə olduqda tələbənin müstəqil işinin mahiyyətinin açıqlanmasına tam aydınlıq gələ bilər. Başqa sözlə desək, tələbə müstəqil işi təlim prosesindən kənarda, müstəqil bir proses olub, tələbənin müstəqil fəaliyyətini özündə cəmləşdirir. Beləliklə, deyilənlərdən məlum olur ki, tələbə həm təlim prosesində, həm də auditoriyadankənarda müstəqil iş prosesində müstəqil fəaliyyət göstərərək, yeni bilikləri mənimsəyir, anlayır, təhlil, analiz və sintez edir, ümumiləşdirir, nəticə çıxarır, yeni ideyalar irəli sürür (bax: şəkil 1).

Məlum olduğu kimi, ölkəmizdə həyata keçirilən təhsil islahatı təhsilin strukturunda köklü dəyişikliklər yaratmışdır. Onlardan biri də ali təhsil mərhələsinin iki pilləli – bakalavr və magistratura pillələrinin olmasıdır. Buna




Şək. 1

müvafiq olaraq, təhsilin məzmunu dünya ali məktəblərinin təcrübəsinə əsasən yenilənmiş, yeni standartlar və tədris planları hazırlanmışdır. Tədris planlarının təhlili göstərir ki, ali məktəblərdə tədricən auditoriya məşğələlərinin saatlarının miqdarı azalır, tələbələrin müstəqil işinə verilən saatların miqdarı isə artırılır. Dünyanın qabaqcıl ali məktəblərində də auditoriya məşğələlərinin saatlarının miqdarı azdır. Burada məqsəd tələbələrin müstəqil olaraq bilik əldə etmələri, tədqiqat aparmaları üçün auditoriya məşğələlərində ilkin biliklər əldə

etməsinə şərait yaratmaq, biliyin əldə edilməsində tələbənin müstəqil fəaliyyətinin rolunu artırmaqdır.

Müstəqil fəaliyyət tələbədən ona daxil olan bir çox əməliyyatları yerinə yetirməyi tələbə edir. Bu zaman tələbə – öz fəaliyyətinin məqsədini anlayır, təlim tapşırığını qəbul edərək, onun mahiyyətini dərk edir, təlim tapşırıqlarının planlaşdırılması zamanı özünü təşkil edir, onları həyata keçirərkən özünənəzarət edir. Magistratura pilləsində isə tələbələr daha yüksək bilik və bacarıqlara, elmi-tədqiqat vərdişlərinə yiyələnirlər. Tələbələr elmi məruzələr hazırlayır, elmlərin metodologiyasına yiyələnir, mətbuatda elmi məqalələrlə çıxış edir, magistr dissertasiyası yazırlar. Bütün bu işlər nəticəsində tələbələrin müstəqil fəaliyyəti pillə-pillə genişlənir, tələbələr bu prosesdə elmi-tədqiqat vərdişləri qazanır, müstəqil yaradıcılıq işi görməyə alışırlar. Son pillə onların müstəqilliyini kamilləşdirir, müstəqil, yaradıcı, təşkilati fəaliyyət üçün yetişdirir.

Məsələnin belə qoyuluşu tələbə müstəqil fəaliyyətinin təşkili məsələlərini daha da aktuallaşdırır. Problemin tədqiqi tam pedaqoji prosesdə tələbə müstəqil fəaliyyətinin yerinin müəyyən edilməsini, onun müstəqil fəaliyyətinin mahiyyətinin açıqlanmasını, tələbənin müstəqil olaraq elmi informasiyanın axtarışı vəzifəsinin həllində müstəqil işin və müstəqil fəaliyyətin imkanlarını müəyyənləşdirməyi, tələbənin idraki fəallığının aktivləşməsində müstəqil işin rolunun açıqlanmasını və s. tələb edir.

## Tələbə müstəqil fəaliyyətinin qiymətləndirilməsi

Müəllim tələbəni necə qiymətləndirməlidir? Bu köklü sual həmişə diqqəti cəlb etmiş və mübahisə doğurmuşdur. Bəzən müəllim dərsdə keçdiyi yeni mövzu ilə bağlı, daha çox fəallıq göstərən tələbəni həvəsləndirmək məqsədi ilə onun dərsdəki müstəqil fəaliyyətini qiymətləndirir. Təcrübə göstərir ki, qiymətləndirməyə belə yanaşma tələbəni passivləşdirir. Belə ki, qiymət prosesində həmin mövzu ilə bağlı zəruri olan digər materialları diqqətdən kənar qoyur, onları öyrənmir. Buna görə də qiymətləndirmə tələbənin tam müs təqil fəaliyyətinin nəticələrinə görə olmalıdır.

## Müstəqil fəalliyyət bacarıqları

Hal-hazırda orta məktəblər üçün yeni tədris planları – kurikumlar hazırlanır. Kurikulumlar əvvəlki tədris planlarından koqnitiv və kreativ proseslərə söykənməsi ilə fərqlənir. Burada, ilk növbədə şagirdə veriləcək kompetensiyaların müəyyən edilməsi tələb edilir. Günün tələbi belədir ki, şagirdə verilən təhsil hafizə üzərində qurulan biliklərdən deyil, koqnitiv və kreativ bacarıqların formalaşması üçün şəraitin yaradılması üzərində qurulmalıdır.

Yeni kurikulumlar amerikan psixoloqu Blumun rəhbərliyi ilə hazırlanan, müxtəlif səviyyədə düşünmə və fikirləşmə bacarıqlarını əhatə edən koqnitiv məqsədlər taksonomiyasına əsaslanır. Bu taksonomiyanın ilk variantında təlim məqsədlərinin bilik, anlama, tətbiq, analiz, sintez, qiymətləndirmə kimi altı səviyyəsi müəyyənləşdirilib (23,16). Son variantında səviyyələrin sayı saxla-

nılmaqla müəyyən dəyişiklik edilmiş, əvvəlki variantda ancaq koqnitiv proseslərə istinad edilirdisə, son variantda onlar artıq kreativ proseslər kimi nəzərdən keçirilir: - xatırlama, anlama, tətbiq etmə, analiz etmə, qiymətləndirmə, yaratma (23, 23).

Blumun taksonomiyası düşünmək, fikirləşmə, mühakimə yürütmək, axtarmaq fenomenləri üzərində qurulmuşdur. Bu bacarıqların aşılanması prioritet təlim məqsədləri kimi qiymətləndirilir. Öyrənəni düşünməyə, fikirləşməyə, mühakimə yürütməyə, axtarmağa sövq etmək müstəqil fəaliyyət prosesində baş verdiyindən, problemin aktuallığı bu gün bir qədər də artmışdır.

Tələbə müstəqil fəaliyyəti də koqnitiv və kreativ proseslərə söykənir. Bu istiqamətdə Blumun taksonomiyasının səviyyələrini ona şamil etmək məqsədəuyğun olardı. Beləliklə, ali məktəbin əsas vəzifələrindən biri məhz hər bir tələbədə taksonomiyada nəzərdə tutulan səviyyələrə müvafiq keyfiyyətlərin formalaşmasını təmin etməkdir.

Blumun taksonomiyasında hər bir səviyyənin açar sözləri verilmişdir. Onlar tələbə müstəqil fəaliyyətinin formalaşması istiqamətində mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Ильина Т.А. Педагогика. Курс лекции. Учебное пособие для студентов педагогических институтов. М.: Просвещение, 1984, 496 с.
2. Жаркова Л.В. Учить самостоятельности. М.: Просвещение, 1984, 144 с.
3. Микелсон Р.М. О самостоятельной работе учащихся в процессе обучение. М.: Учпедгиз, 1940, 28 с.
4. Активизация учебно-познавательной деятельности учащихся. Сб. статей, ЛГПИ, 1984, 144 с.
5. Григоренко Л.В. Формирование готовности студентов педвуза к профессиональной деятельности в процессе самостоятельной работы. Дисс. на соиск. уч. степени канд. пед. наук. Кривой Рог, 1991, 162 с.
6. Зайцев О.В. Методика обучения химии. М., Владос, 1999, 321 с.
7. Зиноньев С.И. Учебный процесс в высшей школе. М.: Высшая школа, 1968, 91 с.
8. Кан-Калик В.А. Педагогическая деятельность как творческий процесс. Дисс. на соиск. уч. степени канд.псих.наук. Горький: 1985, 164 с.
9. Григорьева Н.Г. Саморазвитие личности учащихся средних специальных учебных заведений как педагогическая проблема. Дисс. на соиск. уч. степени канд.псих.наук. Хабаровск: 1995, 256 с.
10. Şəfiyev S. Tələbələrin müstəqil işinə dair // Azərbaycan məktəbi, 1997, №2, с. 3-7.
11. Гапон Э.В. Педагогические условия повышения эффективности самостоятельной работы студентов. Дисс. на соиск. уч. степени канд.пед.наук. Харьков, 1991, 211 с.
12. Гришанова Н.А. Использование активных форм и методов обучения в преподавании спецдисциплин. М.: ИПКСК, 1996, 41 с.
13. Актуальные проблемы развития познавательной активности и самостоятельности студентов. Саратов: СГУ, 1987, 289 с.
14. Вергасов В.М. Активизация познавательной деятельности студентов в высшей школе. Киев, 1985, 172 с.
15. Современный словарь по педагогике. Минск: // Современное слово, 2001, 689 с.
16. Ковалев Г.Е. Организация самостоятельной работы студентов на основе деятельной теории учения. СПб: 1995, 3 с.

17. Bayramov Ə.S.Şagirdlərin əqli keyfiyyətlərinin xüsusiyyətləri. Bakı: Maarif, 1967, 350 c.
18. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ocaq, 1988, s.367.
19. Голант Е.Я. О развитии самостоятельности и творческой активности учащихся в процессе обучения. Воспитание познавательной активности и самостоятельности учащихся. Ч.1., Казань, 1969, с. 36.
20. Пидкасистый П.И. Самостоятельная деятельность учащихся в учении. М.: Педагогика, 1972, 184 с.
21. Срода Р.Б. Воспитание активности и самостоятельности учащихся в учении. М.: АПН РСФСР, 1956, 56 с.
22. Есипов Б.П. Самостоятельная работа учащихся на уроке. М., 1961, с. 15-16.
23. Əlizadə Ə.Ə., Sultanova İ.H. Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı: 2008, 172 s.

## НАУЧНО-ТЕОРЕТИЧЕСКИЕ ПРОБЛЕМЫ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ СТУДЕНТОВ

**Р.М.МАХМУДОВА**

### РЕЗЮМЕ

Самостоятельная работа студентов является приоритетной проблемой в современной системе образования. В статье анализируется сущность самостоятельной работы студентов; личностные качества обосновываются как важнейший принцип для успешного выполнения самостоятельной работы. Определяется содержание таких категорий, как «учебный процесс», «процесс самостоятельной работы», «самостоятельная работа студентов», раскрывается механизм оценки самостоятельной работы студентов, определяются навыки самостоятельной работы на основе когнитивных и креативных процессов.

**Ключевые слова:** учебный процесс, самостоятельная работа студентов, самостоятельная деятельность студентов, оценка самостоятельной деятельности, умения самостоятельной деятельности, таксономия

## THEORETICAL AND METHODOLOGICAL ISSUES OF THE STUDENTS' INDEPENDENT ACTIVITIES

**R.M.MAKHMUDOVA**

### SUMMARY

The issue of students' independent activities is one of the priorities of the day. Its implementation, first of all, is closely connected with the development of skills which are important for independent activities. The article analyzes the content of independent activities of the students, the independence of personality is considered to be the primary principle for independent activities and the demarcation lines of the terms "teaching process","independent working process" and "students' independent activities" are indentified. In the article the mechanism of the evaluation of the students' independent activities is shown and skills of independent activities based on cognitive and creative processes are identified.

**Key words:** teaching process, students' independent work, students' independent activities, evaluation of independent activities, skills of independent activities, taxonomy